QARAQAN

# Birinci addım

## "BEŞ ANONİM MİLYONÇU"

qanun nəşriyyatı

# MÜNDƏRİCAT

Proloq....................................................................7

BİRİNCİ ADDIM

Pul....................................................................11
Çörək və pul....................................................................13
Dollar və onun sirri....................................................................20
Skandinaviya cənnəti....................................................................24
Uğur ....................................................................30
Xoşbəxtlik....................................................................33
İndi isə həqiqət ....................................................................40
Brend ....................................................................44
Oniomaniya....................................................................49
Oniomaniya xəstəliyinin ....................................................................51
pis nəticələri....................................................................51
Porsche Panamera məsələsi....................................................................55
Meymun qanunu....................................................................63
Giriş....................................................................64
Birinci anonim milyonçu ....................................................................65
Dünyanı idarə edənlər....................................................................71
İkinci anonim milyonçu ....................................................................76
Sənə gözəl demək olar?....................................................................91
Sən savadlısan? ....................................................................92
Sən sağlamsan?....................................................................92
Sən aktivsən? ....................................................................93
İstedadlısan? ....................................................................93
Varlısan? ....................................................................94
Gözəllik....................................................................96

Üçüncü anonim milyonçu ....................................................99
Varlıların kasıblara nifrətinin səbəbi ....................................104
Kəpənəyin nağılı ....................................................................108
Statistika ................................................................................112
Dəyərli insanlar .....................................................................121
Məntiq....................................................................................124
Ayı məsələsi ...........................................................................125
Titanik məntiqsizliyi ..............................................................127
Dördüncü anonim milyonçu ..................................................132
Pifaqor faktoru.......................................................................137
Camaat nə deyər – ictimai qınaq ..........................................141
Qurbağaların nağılı ................................................................146
Sürətli dünya ..........................................................................148
Sıfırdan milyona ....................................................................154
Dünyanın ən utancaq adamı .................................................162
Təhkimçilik ............................................................................169
Qoca və at ..............................................................................178
Müxalifət və İqtidar qütbləri .................................................192
Kitabın mövzusundan kənar mövzu .....................................205
Peşəkarlıq ...............................................................................208
İki qarpızsatan ........................................................................211
Əsas məqsəd ...........................................................................212
Mənəvi Hannibalizm ..............................................................218
Yaponiya məktəbi ...................................................................223
Yaponların sirri və ya “Toyota prinsipi” ...............................235
Beşinci anonim milyonçu .......................................................240
Təzadlar .................................................................................247
Lotereya .................................................................................252
Anonim nazirin villası ...........................................................259
Aleksandr Düma ....................................................................263
Epiloq .....................................................................................267

*Salam!*

Salam, dost, bilmirəm bu oxuduğun ilk kitabımdır, ya artıq dəfələrlə həmsöhbət olmuşuq. Bilmirəm məni nə dərəcədə yaxşı tanıyırsan. Sənin gözündə özündənrazı və şöhrətpərəst bir ulduz, yoxsa sevdiyin, özünə yaxın saydığın bir insanam? Bilmirəm, bu kitabı almısan, ya kimdənsə təsadüfən götürmüsən, ya da kitab dükanında açıb ilk cümlələri oxuyursan. Bilmirəm, ümumiyyətlə, kitab oxumaq həvəskarısan, yoxsa sənin gözündə bu, boş bir şeydir. Bilmirəm... Amma sənə bir şeyi danışmaq istəyirəm. Bu aralar mənim həyatımda qəribə bir şey baş verdi. Bir anlıq geriyə çevrilib baxdım və qazandığım uğurları gördüm. Cəmi beşcə ilin içində o qədər irəliləyə bilmişdim ki, bu çox adam üçün təəccüblü də görünə bilərdi. 18 yaşımda olarkən arzu etdiyim yerə gəlib çatdığımı gördüm. Mən doğrudan da o vaxt özümlə bağlı arzu etdiyim bütün uğurları qazanmışdım. Yox, yox! Bu kitab mənim necə uğur qazan-

dığımdan və şəxsi xatirələrimdən ibarət deyil. Heç vaxt istəmərəm özümü ağızdolusu tərifləyim və kimsə bunu oxusun. Əksinə, bu kitab mənim bu aralar keçirdiyim qəribə bir hisslə bağlıdır. Bunu bir gün sən də öz içində mütləq hiss edəcəksən, amma qorxuram ki, o gün artıq gec olsun. Bu, elə bir hissdir ki, onunla üzbəüz qaldıqda artıq geriyə dönüb fikirləşməyə, hazırlaşmağa, nəyisə dəyişməyə vaxtın olmayacaq. Bu hiss özü ilə o qədər sual gətirəcək ki, sən az qala dəli olacaqsan, fərqi yoxdur avtobus dayanacağında, yoxsa şəxsi təyyarəndə – amma bu hiss gələcək. Və sən hər iki halda eyni sualı verəcəksən.

* * *

Ona görə də nə qədər ki gec deyil, bu kitabı oxu. Ola bilsin ki, bu, boş söz yığını və axmaq fikirlərdən ibarət bir kitabdır. Amma əgər bircə cümləsi belə həmin an sənə kömək edə biləcəksə, bunu oxu.

# PROLOQ

Siz kimsiniz? Nəyə nail olmaq istəyirsiz bu həyatda? Arzularınız nədir? Hansı xəyallarınızı təsəvvür edəndə içinizdə xoşbəxtlik hissi yaranır?

Bəs sıxıntılarınız nədir? Hansı problemləriniz sizi narahat edir ki, onları düşünərkən nəfəsiniz ağırlaşır və kövrəlirsiniz, yataqda uzanarkən yastığınızı qucaqlayıb yumruqlarınızı sıxır və bu problemdən qurtulmaq istəyirsiniz. Nədi sizi hər dəfə siqaret çəkməyə, ya ilk siqaretə başlamaq haqda düşüncələrə gətirən? Hansı yaxınlarınızda istəmədiyiniz, sizi ağrıdan cəhətləri görürsünüz? Nədi onları sizin gözünüzdə pis edən, ədalətsiz və sizə qarşı diqqətsiz edən?

Öz qarşınızda qoyduğunuz məqsədlər var, sevdiyiniz adamlar da var, istəyirsiniz ki, heç olmasa bir neçə addım, ildə cəmi bir neçə addım öz istəyinizə doğru gedəsiniz. Amma bu dünyada rahat hərəkət edə bilmək

üçün əvvəlcə harada olduğumuzu anlamalıyıq. Bizi tanımadığımız bir dünyaya heç nə demədən tullayıblar və bilmədiyimiz dəyərlər arasında tanımadığımız yollar arasında hələ də seçmədiyimiz hədəflərimizə doğru getməliyik. Hər kəs özünə bir səmt, bir əqidə seçir, hər kəs özünə bir arzu və bir qorxu seçir. Mən sizə nə düz yol göstərənəm, nə də səhv yola gedənləri günahlandıran, yolları seçən, mən, ümumiyyətlə, coğrafiyanı sevmirdim və xəritələrdən də başım çıxmır, amma özüm üçün də yol seçərkən hər dəfə eyni nöqtələrə gəlib dirənir və dayanırdım. Hansı dəyər daha dəyərlidir? Pul? Sevgi? Xoşbəxtlik? Ləzzət? Status? Mənəviyyat? Millətçilik? Demokratiya? Din? Karyera? Siz bunlardan hansına doğru addımlayırsınız? Sizə bunlardan hansını daha çox tərifləyiblər?

Bu kitabda sizə şəxsən tanıdığım beş azərbaycanlı milyonçudan və bizi əhatə edən məfhumlardan danışacam. Kitabın getdikcə elmi və ideoloji ağırlığı artacaq. Kitabda yazılan bütün faktlar və elmi göstəricilərin mənbələri var.

# BİRİNCİ ADDIM

***("Üç Addım" adlı trilogiyanın birinci hissəsi)***

*Banklardan kredit götürmək reklamlarda deyilən kimi asan olsaydı, heç kəs bank yarmazdı.*

**Amerikan deyimi**

Yadıma 1991-ci il gəlir. Üç-dörd yaşım olardı. O yaşda adamın yaddaşı o qədər də güclü olmur, amma bəzi xatirələr mənim yadımda qalıb. Evimizdə nə isə qonaqlıq idi, valideynlərimin dostları gəlmişdi. Müxtəlif zarafatlar, söhbətlər və gülüş səsləri eşidilirdi. Mən hər şeyi aşağıdan yuxarı görürdüm. Balaca idim. Onların dizi boyda olardım. Amma yadımda dəqiq qalan bir hadisə olmuşdu. Məni nənəm qaldırıb masanın üstünə qoymuşdu. Mənimlə qonaqlar nəsə danışır, gülürdülər. Uşaq idim, onlara maraqlı gəlirdim. Əlimdə "10 manat" pul var idi. Bilmirəm kim vermişdi onu mənə, yəqin ki, qonaqlardan biri. Bu köhnə onluqlardan idi. Dəqiq bilmirdim heç nə almaq olardı ona.

Ümumiyyətlə, demək olar, heç saya da bilmirdim o vaxt. İlk dəfə əlimdə pul tutduğum an idi o an. O vaxta kimi çox görmüşdüm pulu, anam mənə saqqız alanda, ya babam əlində maaşla gələndə, ya atam masanın üstünə pulu qoyub o biri otaqda paltarını dəyişəndə. Amma heç vaxt pulu əlimdə tutmamışdım. İlk dəfə həmin gün idi əlimdə 10 manatı tutub qonaqların üzünə baxırdım. Yanıma gülərüz əmi və dayılardan biri yaxınlaşdı. Bığlarının altından dişlərini ağardıb əlimdəki pula baxdı. O vaxt heç içkili adamı ayıqdan da ayıra bilmirdim, valideynlərim də, digər qonaqlar da mənə baxır, gülürdülər. Birdən həmin əmi əlimə baxıb dedi: "Pah, bu kopayoğluya baxın, görün əlində nə tutub?" Qonaqlar mənə baxır və gülümsəyirdilər, mən də onlara baxıb gülümsəyirdim. Elə bilirdim ki, nə isə yaxşı bir şey eləmişəm. Onda həmin əmi zarafatla dedi "Ver onu bura görüm", "Ver pulu əmiyə" – əlbəttə ki, uşağın əlindən nəyisə almaq çətin şey idi. Mən başımı yelləyib dedim: "Yox, mənimdi", onda o, cibindən yüz manat çıxarıb mənə uzatdı, dedi: "Ala bax, mən sənə bunu verim, sən də mənə onu ver". Mən diqqətlə onun uzatdığı yüz manata baxdım, sonra əlimdəki on manata, bütün qohumlar da gözlərini bizə zilləyib gülümsəyirdilər. Bir daha başımı aşağı salıb yüz manata baxdım, sonra on manata və dedim: "yox, vermirəm".

Bu hadisəyə orada hamı güldü bu həyatımda ilk gülüş idi ki, onun səbəbini anlamamışdım. Mən 10 mana-